# Azərbaycan bəstəkarlarının uşaq mahnılarının tərbiyəvi əhəmiyyəti

**Gülarəxanım Axundova**
ADPU-nun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru
**E-mail:** m.aiyeva60@gmail.com



Məlumdur ki, musiqi qüdrətli tərbiyə vasitəsi olmaqla yanaşı, uşaqların estetik hisslərini və yaradıcı qabiliyyətlərini də formalaşdırır. Musiqinin ən asan qavranılan janrlarından biri mahnıdır. Mahnı insanı beşikdən ömrünün sonuna qədər müşayiət edir. Mahnılarda insani hisslər – sevinc və kədər, pafos və lirika, yumor və qəhrəmanlıq – ən açıq formada özünü büruzə verir. Mahnılar cəmiyyətin ümumi ideyasını əks etdirərək, şüur və hissləri kökündən dəyişdirməyə qadirdir, insanların birləşməsinə və həmrəyliyinə imkan yaradır.

Mahnıları xalq və müəllif (professional) növlərinə ayırd etmək olar. Mahnının bu iki növü daima bir-biri ilə əlaqədədir: xalq mahnısının elementlərindən bəstəkarlar öz yaradıcılığında istifadə edirlər, bununla yanaşı çox populyar və xalq tərəfindən sevilən müəllif mahnıları tədricən "xalq mahnısı" statusu alır.

Mahnılara musiqinin və sözün qeyri-adi əlaqəsi xasdır, burada poeziyanın və melodiyanın xüsusi vəhdəti baş verir. Adətən mahnıların mətni poeziyanın xüsusi janrına aid olunur. O, kompozisiyasının səlisliyi, sintaktik və quruluş vurğularının (bitkin fikrin, cümlənin və sətrin) üst-üstə düşməsi ilə fərqlənir. Mahnının melodiyası mətndə olan obraz-məzmunun tam olaraq ümumiləşdirilmiş nəticəsi kimi çıxış edir.

Azərbaycan bəstəkarlarının yaradıcılığında mahnı janrı çoxluq təşkil edir. Ən "klassik" sayılan bəstəkarlarımızın da heç olmasa 2-3 mahnısı vardır. Bu da onunla bağlıdır ki, onlar öz yaradıcılığında zəngin xalq irsinə, xalq təfəkkürünə və zövqünə arxalanmışlar. Lakin bəstəkarlarımızın yaradıcılığında uşaq mahnılarının sayı o qədər çox deyildir.

Demək olar ki, elə Azərbaycan bəstəkarı yoxdur ki, uşaq mahnı janrına müraciət etməsin. Dahi Üzeyir bəydən başlayaraq müasirlərimizə qədər bütün bəstəkarlarımız bu janrda əsərlər yaratmışlar. Çünki Azərbaycanda XX əsrin əvvəllərindən başlayan dövlət təhsil sisteminin quruculuğunda şəxsiyyətin tərbiyəsi işində musiqi və nəğmənin misilsiz rolunu mütəfəkkirlərimiz və dövlət xadimlərimiz çox gözəl başa düşürdü. Məhz Sovet dövründə yaranmış və formalaşmış Azərbaycan professional bəstəkarlıq məktəbi, bilavasitə həmin ideoloji prinsipin arxasınca getmiş və bu yolda öz fəaliyyətini göstərmişdir.

Hələ 20-30-cu illərdə Ü.Hacıbəyli ilk olaraq uşaqlar üçün bir neçə mahnısını bəstələmişdir. Məhz onun yaratdığı ilk musiqi nümunələri uşaq repertuarının yaranması və zənginləşməsi işində çox əhəmiyyətli yol açdı. Bu mahnıların sırasında "Pilotlar" (söz. M.Seyidzadənin), "Bayram günü" (söz. M.Seyidzadənin), "Yaxşı yol" (söz. S.Rüstəmin), "Bayram mahnısı" (söz. H.Hüseynzadənin) və "Ey, Vətən" (söz. S.Vurğunun) xor mahnısını göstərmək olar. Adıçəkilən əsərlər vasitəsilə gənclərdə vətənpərvərlik ruhu tərbiyə edilirdi.

Sonralar bütün nəsillərdən olan Azərbaycan bəstəkarları bu yolu davam etdirərək, uşaqlar üçün gözəl mahnılar yaradıblar.

1920-2010-cu illərdə Azərbaycanda bəstələnmiş uşaq mahnılarının təhlili göstərir ki, bu janra bəstəkarlarımızın əksəriyyəti müraciət ediblər və balacalar üçün 1000-dən çox mahnı yazılıb. Həmin mahnılarda uşaqların müxtəlif yaş dövrləri, yəni məktəbəqədər dövr, kiçikyaşlı məktəblilər, yuxarı yaşlı məktəblilərin yaş xüsusiyyətləri, səs imkanları ciddi nəzərə alınmışdır.

Uşaq mahnılarının tərbiyəvi əhəmiyyətindən danışarkən, zənnimizcə, tərbiyənin üç istiqaməti əsas götürülməlidir: 1. İdeya-siyasi tərbiyə əhəmiyyəti olan mahnılar; 2. Mənəvi tərbiyə əhəmiyyəti olan mahnılar; 3.Əmək tərbiyəsi əhəmiyyəti olan mahnılar.

İdeya-siyasi tərbiyə dedikdə siyasi, vətənpərvərlik, fədakarlıq, beynəlmiləlçilik, elmi dünyagörüşünün formalaş-



ması nəzərdə tutulur. Sözsüz ki, burada ən başlıca keyfiyyət – vətənpərvərlikdir. Vətənpərvərlik hissi lap kiçik yaşlardan ta tələbəlik dövrü daxil – bütün yaş dövrlərində insanlara aşılanmalıdır.

Bəstəkarlarımızın vətənpərvərlik mövzusunda mahnıları az deyildir. Bu cür mahnılardan Ü.Hacıbəylinin “Pilotlar” (söz. M.Seyidzadənin), C.Cahangirovun “Vətən” (söz. A.Şaiqin), S.Ələsgərovun “Vətənim” (söz. H.Ziyanın), “Ölməz sərkərdə” (söz. C.Cavadlının), T.Bakıxanovun “Vətən nəğməsi” (söz. T.Mütəllibovun), Ş.Axundovanın “Vətən sevgisi” (söz. İ.Coşqunun), O.Zülfüqarovun “Gözəl Vətən” (söz. T.Elçinin), C.Quliyevin “Vətən marşı” (söz. R.Hüseynovun), “Əsgər marşı” (söz. Ə.Kaminin), O.Rəcəbovun “Vətənimin əsgəri” (söz. A.Teymurlunun), “Qalx ayağa Azərbaycan” (söz. Ə.Ağayevin), A.Rzayevanın “Vətən” (söz. T.Mütəllibovun), S.Rüstəmovun “Azərbaycan” (söz. S.Vurğunun) və digər mahnılarının adlarını çəkmək olar.

Mənəvi tərbiyə dedikdə, buraya həm doğma torpağa, təbiətə sevgi, həm dostluq, yardımlaşma, paylaşma, kollektivçilik, həm əxlaqi keyfiyyətlər – doğruluq, düzlük, xeyirxahlıq, ədalətlilik, təvazökarlıq, ləyaqətlilik, həm humanizm – ailə üzvlərinə və ümumən insanlara qarşı xoşniyyətli olmaq, təbiətə – flora və faunaya qarşı qayğıkeş münasibət bəsləmə və həmçinin sadəlik, dəqiqlik, təmizkarlıq və s. kimi mənəvi insani keyfiyyətlərin tərbiyəsi daxildir.

Mənəvi tərbiyənin mühüm bir ünsürü yardımlaşma və paylaşma, dostluq, əməkdaşlıq hisslərinin tərbiyəsidir. Çünki insanlar işlədiyi və yaşadığı yerlərdə digər insanlar ilə ünsiyyətdə olurlar. Uşaqları həyata hazırlamaq, onları xoşniyyətli, qayğıkeş, yaxşı və etibarlı dost kimi yetişdirmək təkcə valideynlərin borcu deyil, həm də müəllimlərin üzərinə düşən vəzifədir. Nəzərə alsaq ki, çalışan valideynlər uşaqların üzünü müəllimlərdən daha az görür, müəllimin uşağın şəxsiyyətinin formalaşmasında böyük rolu daha qabarıq üzə çıxır. Məktəblilər üçün yoldaşlığı, dostluğu və kollektivçiliyi tərənnüm edən mahnılara bəstəkarlarımızın yaradıcılığında az rast gəlinir. Bunun əsas səbəbi şairlərimizin belə mövzulara az müraciət etmələridir.

Musiqi fənnini tədris edən müəllim Azərbaycan bəstəkarlarının az da olsa yaratdıqları gözəl mahnılar vasitəsilə bu keyfiyyəti də uşaqlarda tərbiyə edə bilər. Burada T.Quliyevin “Dörd dost” (söz. Ə.Əlibəylinin), O.Zülfüqarovun “Çal, baraban” (söz. T.Elçinin), “Mənim dostum” (söz. Q.İsazadənin), N.Məmmədovun “Dostluğumuz var olsun” (söz. C.Cavadlının), O.Rəcəbovun “Dünya bizim evi¬mizdir” (söz. M.İsmayılın), Ə.Cavanşirovun “Bacılar” (söz. M.İsmayılın), Ə.Əzimovun “Əl-ələ” (söz. R.Zəkanın), Ə.Abbasovun “Bizim düşərgə” (söz. Ə.Cəmilin), C.Cahangirovun “Gənc səyyahların mahnısı” (söz. H.Abbaszadənin), və s. həm oxumada, həm də dinləmədə istifadə oluna bilər.

Bundan əlavə S.Ələsgərovun “Məktəblilər mahnısı” (soz. G.Fəzlinindir), O.Zülfüqarovun “Məktəbliyəm mən” (söz. T.Elçinindir), C.Cahangirovun “Uşaq¬lar, ay uşaqlar” (söz. Z.Cabbarzadənindir), F.Əmirovun “Bizim həyət” (söz. T.Elçinindir), C.Cahangirovun “Mahnı və rəqs” (söz. M.Seyidzadənindir), O.Zülfüqarovun “Dilarə” (söz. T.Mütəllibovundur), S.İbrahimovanın “Mənim doğma məktəbim” (söz. ), M.Mirzəyevin “Minnətdarlıq” (söz. H.Ziyanın) kimi mahnılar məktəblilərdə kollektivçilik, dostluq-yoldaşlıq kimi mənəvi keyfiyyətlər yarada bilər.

Digər mühüm məsələ əxlaqi keyfiyyətlərin tərbiyəsidir: burada doğruçuluq, düzlük, dəqiqlik, sözünə əməl etmə, “yaxşını” və “pisi” fərqləndirmə, xeyirxahlıq, ədalətlilik, sadəlik, təvazökarlıq, ləyaqətlilik kimi keyfiyyətlərin tərbiyəsi nəzərdə tutulur. Ədalətlilik və ədalətsizlik, pis və yaxşı anlayışları ilə əlaqədar uşaq mahnılarına da rast gələ bilmirik. Amma bu keyfiyyətləri digər mövzulara həsr olunmuş mahnılar vasitəsi ilə məktəblilərə aşılamaq mümkündür. Məsələn, N.Əliverdibəyovun “Fırça”, A.Rzayevanın “Yaxşı otur, yaxşı dur” mahnılarını istifadə etmək olar.

Mənəvi tərbiyənin digər bir tərəfi humanizmdir. Buraya sülhsevərlik, ailə üzvlərinə qayğıkeş və ümumən insanlara qarşı xoşniyyətli münasibət bəsləmə, digər xalqlara tolerantlıq, təbiətə sevgi, quşlara, heyvanlara mərhəmət hisslərinin tərbiyəsi daxildir. Belə keyfiyyətləri tərənnüm edən mahnılarımız az deyildir. Məsələn, Ü.Hacıbəylinin “Bayram günü” (söz. M.Seyidzadənin), Q.Qarayevin “Məktəblilərin sülh haqqında mahnısı” (söz. Z.Cabbarzadənin), R.Şəfəqin “Göyərçinik biz” (söz. Z.Xəlilin), “Qoruyaq təbiəti” (söz. H.Ziyanın), Ə.Əzimovun “Bir əsrin insanları” (söz. R.Heydərin),

T.Bakıxanovun "Qoruyaq körpələri" (söz. T.Mütəllibovun), S.Ələsgərovun "Sülh nəğməsi" (söz. H.Ziyanın), O.Rəcəbovun "Dünya bizə tapşırılıb" (söz. M.Abbasın), "Təmiz səma altında", F.Əmirovun Z.Cabbarzadənin sözlərinə "Bahar gəlir", "Quşlar", "Quzum", S.Rüstəmovun M.Seyidzadənin sözlərinə "Xəzər", "Qərənfil", "Bulaq", "Dağlar" mahnıları, O.Zülfüqarovun "Anamı incitmirəm", "Dəcəllik eləmirəm" (sözləri bəstəkarın), T.Elçinin sözlərinə "Can nənə", "Sərçə", C.Quliyevin "Quşlar", Ə.Abbasovun "Qaranquş" (söz. H.Arifin), R.Hacıyevin "Samur" (söz. M. Rahimin), A.Zeynllının "Araz" (söz. Rəsul Rzanın), R.Mustafayevin "Qoruyaq biz", S.İbrahimovanın "Çiçəklər", "Nənəm nağıl danışır" (söz. N.Xəzrinin), E.Dadaşovanın"Ana" (söz. S.Tağıyevanın), "Gəl, bahar" (söz.T.Elçinin), M.Mirzəyevin "Təbiət mahnısı" (söz. G.Fəzlinin), H.Ziyanın sözlərinə "Minnətdarlıq", "Şənlik mahnısı", N.Məmmədovun "Xoşbəxtlərik" (söz. C.Cavadlının), "Gəlin, ay uşaqlar" (söz. A.Zeynallının), Ə.Cavanşirovun "Xoş keçir hər anımız" (söz. H.Ziyanın), "Ağacdələn" (söz. T.Şahdağlının), R.Mirişlinin R.Zəkanın sözlərinə "Kəpənək", "Gəl, ay sığırçın" bu qəbildən olan mahnılardır.

Əmək tərbiyəsi dedikdə əvvələ insanda müəyyən əmək vərdişləri, ikincisi isə zəhmətsevərliyin tərbiyəsi, əməyə yaradıcı, vicdanlı münasibətin formalaşdırılması nəzərdə tutulur. Əmək tərbiyəsində qeyd etdiyimiz hər an estetik tərbiyənin tərkib hissəsi sayılan bədii tərbiyə və əmək tərbiyəsinin orqanik birləşməsinə səbəb olur, yəni hər bir əmək insana sevinc gətirməlidir. Belə olduqda insanın istehsalatda yaratdığı hər şey gözəl ola bilər. Buradan demək olar ki, əmək tərbiyəsi kiçik yaşlarından məktəblilərə elə aşılanmalıdır ki, onlarda yeni bir ictimai hiss - gözəllik hissi yaradılsın və tərbiyə olunsun.

Bəstəkarlarımızın yaradıcılığında uşaqlar üçün peşə ilə bağlı, əməyə, zəhmət adamlarına və xalq malına doğru münasibət tərənnüm edən mahnılara rast gəlinir. Belə mahnıların sırasında İ.Quliyevin "Bizim zəhmətimiz" (söz. Ə.Kürçaylının), Q.Hüseynlinin "Mənim bağım" (söz. G.Fəzlinin), R.Şəfəqin "Əməyi sevirik biz" (söz. R.Əhmədzadənin), A.Rzayevanın C.Məmmədovun sözlərinə bəstələdiyi "Mişar", "Sürürcü", "Bizim gəmi", "Balaca kapitan" mahnılarını, O.Zülfüqarovun "Sünbülüm" (söz. H.Ziyanın), "Təndir çörəyi", "Balaca rəssam" (söz. M.Aslanın), "Pambığım" (söz. T.Elçinin), A.Sultanovanın T.Elçinin sözlərinə bəstələdiyi "Çəkicim vur", "Balaca dirijor" mahnılarını, T.Hacıyevin "Balaca neftçi" (söz. R.Zəkanın), T.Quliyevin "Neftçilər mahnısı" (söz. S.Rüstəmin), F.Əmirovun "Tənbəl" (söz.T.Elçinin) və başqalarını göstərmək olar.

Bu mahnıları oxuyan ya da dinləyən uşaqlarda zəhmət adamlarının əməyinin nəticəsini göz bəbəyi kimi qoruyub saxlamaq kimi hisslər tərbiyə oluna bilər. Bu mahnıları ifa etdikdən sonra məktəblilərdə belə bir fikir formalaşdırmaq lazımdır ki, xalqımızın böyük zəhmətlə yaratdıqlarını qorumaq və el malına pis münasibət bəsləyənlərə qarşı mübariz olmaq gərəkdir. Aparılmış müşahidələr və təcrübələr göstərir ki, bu keyfiyyətləri müəllim məktəbliləri düzgün istiqamətləndirdikdə aşılamaq mümkündür.

Beləliklə, Azərbaycan bəstəkarlarının mahnıları uşaqlara bütöv bir ecazkar aləmi açır və yeni-yeni hissləri oyadaraq onları tərbiyə edir. ❖

**Ədəbiyyat:**

1. J.Qədimova. Musiqinin tədrisi metodikası. Bakı: ADPU, 2007, 333 s.
2. S.Quliyev. Musiqi inkişafı və musiqi tərbiyəsi, Bakı: APİ, 1981, 90 s.
3. O.Rəcəbov. "Uşaqlar və mahnılar", Bakı: İşıq, 1985, 178 s.
4. O.Rəcəbov, G.Məmmədova. «Pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərdə musiqi tədrisinin metodikası». B., 2009
5. V.Xəlilov. Seçilmiş əsərləri, VII cild. Bakı, 2013
6. R.Zöhrabov. Bəstəkarlarımız haqqında söz. Bakı, 1999

**Резюме**

Гюлараханым Ахундова

ВОСПИТАТЕЛЬНОЕ ЗНАЧЕНИЕ ДЕТСКИХ ПЕСЕН АЗЕРБАЙДЖАНСКИХ КОМПОЗИТОРОВ

В статье раскрывается роль детских песен Азербайджанских композиторов в воспитании подрастающего поколения. Здесь рассматривается эволюционный путь жанра детской песни. Указывается значение детских песен Азербайджанских композиторов в трех направлениях воспитания – идейно-политическом, нравственном и трудовом.

**Ключевые слова:** песня, воспитание, патриотизм, дружба, гуманизм, миро¬любие, уважение к труду и трудящимся

**Summary**

Gularaxanim Akhundova

EDUCATIONAL VALUE OF CHILDREN'S SONGS OF AZERBAIJANI COMPOSERS

The article reveals the role of children's songs of Azerbaijani composers in the education of the younger generation. Here we consider the evolutionary path of the genre of children's songs. The importance of children's songs of Azerbaijani composers in three areas of education - ideological, political, moral and labor is indicated.

**Key words:** song, upbringing, patriotism, friendship, humanism, peacefulness, respect for work and working people